

Ümumi vaxt

**45-60 dəq.**

Yaş qrupu

**8-14 yaş**

# HƏR KƏS QAPIÇI OLA BİLƏR!

## Təlim nəticələri

- Şagirdlər Qlobal məqsədlərə nail olmaqda Qapıçının rolunu dərk edəcəklər.
- Şagirdlər artıq sahib olduqları hansı bilik və bacarıqların Qlobal məqsədlərə nail olmaq üçün töhfə verə biləcəyini müəyyənləşdirib dərk edəcəklər.
- Şagirdlər öz mövqelərini əsaslandırmağı öyrənəcəklər.

## Mənbələr

Bu dərs internetin mövcudluğundan asılı olmayaraq keçirilə bilər. Internet olduğu halda: (Goalkeeper Me - Mən qapıçıyam) elektron əlavəsi vasitəsi ilə şagirdlərin fotoşəkillərinin veb-sayta yükləməsinə imkan yaradan fotokameralar, telefonlar, portativ kompüterlər, planşetlər və s. İnternet olmadığı halda: qələmlər, boyalar, kollajların hazırlanması üçün materiallar, güzgülər və “Məqsədlərin qapıçısının portreti” adlı müstəqil iş üçün kağız vərəqləri.

## Dərs planının daha geniş məzmunu

Bu dərs planının məqsədi hər bir insanın “Məqsədlərin qapıçısı” ola biləcəyinə və Dayanıqlı İnkişaf Məqsədlərinə (Qlobal məqsədlərə) nail olmaq naminə fəaliyyətə başlamağa şagirdləri inandırmaqdır. Bu məqsədlərə nail olmaq üçün hər insanın iştirakının zəruri olduğunu dərk etdikdə şagirdlər bütün insanların, o cümlədən özlərinin də əldə etdikləri müxtəlif bacarıqları müəyyən edib dəyərləndirə bilərlər. Bu dərs planı Beynəlxalq Şagird Qiymətləndirməsi Proqramı – PİSA-nın əsas meyarlarından olan Qlobal kompetentlik (2018-ci il) meyarı ilə uzlaşdırılmışdır. “Qlobal kompetentlik (səriştə) yerli, qlobal və mədəniyyətlərarası məsələləri qavramaq (dərk etmək), digər insanların mövqeyini başa düşmək və onlara hörmət etmək, müxtəlif mədəniyyətlərin nümayəndələri ilə birgə cəmiyyətin maraqlarına cavab verən səmərəli əməkdaşlıqda iştirak edərək rifah və dayanıqlı inkişaf naminə fəaliyyət göstərməkdir”. http://www.oecd.org/pisa/pisa-2018-global-competence.htm

**Müəllimlər üçün qeyd**
Bu dərs “Məqsəd qapıçısı”nın portretini yaratmaqla öz bacarıq, şəxsi keyfiyyət və biliklərini dərk etməkdə şagirdlərə kömək edir. Bəzi şagirdlər onların fotoşəkilləri çəkilən zaman özlərini narahat hiss edirlər, ona görə də onlara digər şagirdin “Məqsəd qapıçısı” portretini və yaxud Qlobal məqsədlər sahəsində məşhur “Məqsəd qapıçıları”nın portretini yaratmağı təklif etmək olar.

Bu dərs şagirdlərin fotoşəkillərinin internetə yüklənməsini də nəzərdə tutur. Əmin olun ki, bu, şəxsi həyatın toxunulmazlığı hüququna hörmət və müdafiə sahəsində məktəbinizin siyasətinə zidd deyil. Həmçinin “Məqsəd qapıçısı” əlavəsinin əsasnaməsi və şərtləri ilə tanış olun: http://cdn.worldslargestlesson.globalgoals.org/2018/06/goalkeeper-privacy1-1.pdf

## Təşəkkürlər

**Kris Qedberiya**, Twitter: @chrisgadbury www.magicstorybooks.com
**Memori Bandaya:** https://memorybanda.blogspot.com/
**Ndbuisi Uçeaya və Hayel Vartemberqə:** https://wordonthecurb.co.uk/ xüsusi minnətdarlığımızı bildiririk.

### 1-ci addım: Mövcud biliklərin aktivləşdirilməsi

**5** dəq.

**Qeyd: Bu dərs şagirdlərin Qlobal məqsədlər haqqında biliklərinin artıq mövcud olduğunu nəzərdə tutur. Bu http://www.tipii.edu.az/az/videos#lg=1&slide=10 linkdən istifadə edərək şagirdləri Qlobal məqsədlərlə tanış edən “Dünyanın ən böyük dərsi” multiplikasiya filmini (1-ci hissəsini) göstərmək olar.**

Şagirdlərə öz biliklərini yada salmaq üçün Qlobal məqsədlərə aid aşağıdakı sualları verin. Qlobal məqsədlər konkret olaraq hansı nəticələrin əldə edilməsinə yönəlmişdir? Nə üçün onlar vacib sayılır? Neçə məqsəd qoyulmuşdur? Bunu “Fikirləş, cütlükdə müzakirə et, bölüş” üsulu ilə və yaxud bütün sinif üzrə çalışma formasında etmək olar.

### 2-ci addım: Qlobal məqsədlərə artıq kimin xidmət etdiyinin müəyyənləşdirilməsi

**10** dəq.

Şagirdlərə sual verin: Qlobal məqsədlərə nail olmağa görə kim cavabdehdir?
Güman edilən cavablar: Hökumət, QHT, xeyriyyə fondları, BMT, işgüzar dairələr, təhsil müəssisələri, uşaqlar, böyüklər, bir sözlə, bütün insanlar!
Bundan sonra sual verin: Qlobal məqsədlərə nail olmağa görə gənclər məsuliyyət daşıyırlarmı? Qlobal məqsədlərə nail olmaq naminə gənclər dünyanı yaxşılığa doğru dəyişdirə bilərlərmi?
Şagirdlərin bir neçə cavabını və mövqeyini müzakirə edin. Onlara izah edin ki, uşaqlar və gənclər hətta çox erkən yaşlarda da Qlobal məqsədlərə nail olmaq üçün çox mühüm töhfə verə bilərlər. Qlobal məqsədlərə nail olmaq naminə adi gənclərin nə etdikləri barədə nümunələr ilə tanış olmaq üçün “Dünyanın ən böyük dərsi” multiplikasiya filminə (2-ci hissəsinə) http://www.tipii.edu.az/az/videos#lg=1&slide=16 baxın. Və yaxud “Dünyanın ən böyük dərsi”nin interaktiv xəritəsindəki nümunələri şagirdlərə göstərə bilərsiniz: www.world’sLargestLesson_interactive_map Bununla da gənclərin Qlobal məqsədlərə nail olmağa yönəlmiş fəaliyyətləri ilə şagirdləri tanış edə bilərsiniz.
Şagirdərə izah edin ki, belə insanları “Məqsəd qapıçısı” adlandırmaq olar, çünki onlar ayağa qalxaraq Qlobal məqsədlərə nail olmaq naminə fəaliyyətə başlayırlar. Onlar məktəblərin, evlərin, icmaların və ölkələrinin elə indinin özündə daha yaxşı olmasını istəyən tamamilə adi insanlardır. Bu da öz növbəsində hamının və hər kəsin yaşayış keyfiyyətinin yüksəlməsinə təkan verəcək. Bu insanlar gələcək nəsillər üçün də narahatlıq hissi keçirirlər. Onlar dünyanın daha dürüst və ədalətli olmasına yönəlmiş Qlobal plan ilə öz fəaliyyətlərinin uzlaşmasını Məqsədlərə çatmaq üsullarından biri kimi istifadə edirlər. Bütün dünya üzrə digər gənc “Məqsəd qapıçıları” haqqında şagirdlər **Əlavə 1-də** oxuya bilərlər.

## 3-cü addım: Qlobal məqsədlərə nail olmaq naminə insanların sahib olduğu bacarıqların

15
dəq.

**Qeyd: Növbəti çalışmanın düzgün və yaxud səhv cavabı yoxdur. Bu çalışma şagirdlərin öz ideya və mövqelərini əsaslandırmağa təkan verən sualların qoyulması yolu ilə onlar arasında diskussiyanın yaradılmasına yönəlmişdir.**

Memori Bandanın dediklərindən bir sitatı ucadan oxuyun (Memorinin 5-ci Məqsədə aid möhtəşəm fəaliyyəti haqqında daha geniş məlumat almaq üçün Əlavə 1-lə tanış olmaq olar).

*"Hər bir insan "Məqsəd qapıçısı" ola bilər, çunki bunun üçün heç bir xüsusi qabiliyyət gərək deyil. Sadəcə olaraq Qlobal məqsədlərdən birini seçərək var gücünü tərəqqiyə yönəltmək lazımdır".*

Bu sitatı bütün siniflə birgə müzakirə edin – şagirdlər bu fikirlə razıdırlarmı? Onlara izah edin ki, hər bir insanın Qlobal məqsədlərə nail olmaq üçün müxtəlif bilik və bacarıqları var. Ən vacibi isə odur ki, bu Məqsədlərə nail olmaq üçün şagirdlər onları necə istifadə edə bilərlər? Fəaliyyətə başlamaq qərarına gələrkən "Məqsəd qapıçısı" uğursuzluğa və məyusluğa məruz qala bilər, lakin buna baxmayaraq Məqsədlərə nail olmaq naminə nikbinliyi və qətiyyəti itirməməlidir.

"Qlobal məqsədlər arasındakı qarşılıqlı əlaqələrin müəyyən edilməsi" adlı müstəqil iş vərəqini şagirdlərə göstərin (Əlavə 2). Bu tapşırıq Məqsədlərin hər birinə nail olmaq üçün lazım ola biləcək bacarıqları müəyyən etməkdə şagirdlərə kömək olacaq. Əlavə 3-də yaşıl rənglə qeyd olunmuş 15 sözü göstərin (məktəbinizin konkret tələblərindən asılı olaraq siz bu siyahıda dəyişikliklər edə bilərsiniz). Başlamaq üçün bir söz, məsələn, "yaradıcı" sözünü seçin. Bu sözü müstəqil iş vərəqinin mərkəzində yerləşən birinci düzbucaqlıda yazın.

Sonra aşağıdakı sualı verin: Sizin öz yaradıcı potensialınızdan istifadə etmək bacarığınız Qlobal məqsədlərə nail olmağa necə kömək edə bilər? Hansı Məqsəd və yaxud Məqsədlərə nail olmağa yaradıcı yanaşma daha çox təsir göstərə bilər? Şagirdlərə onların öz mövqe və seçimlərini əsaslandırmağı təklif edin. Sinifdə səslənmiş bir neçə ideyaya əsaslanaraq "Yaradıcı" sözündən bütün müvafiq Məqsədlərə qədər xətt çəkərək qarşılıqlı əlaqəni göstərin.

Bundan sonra şagirdlər Qlobal məqsədlərə nail olmaq üçün onların fikirincə ən çox əhəmiyyət daşıyan və daha çox xeyir verə biləcək Əlavə 3-də göstərilən bacarıqları seçib Məqsədlərlə bu bacarıqları birləşdirərək iş vərəqlərini doldura bilərlər.

Şagirdlərin hansı bacarıqları daha vacib hesab etdiklərini öyrənmək üçün çalışmanın yerinə yetirilməsi zamanı işi arada bir dayandırın. Nə üçün bu və ya digər bacarıqları seçdikləri, nə üçün onları konkret Məqsədlərə nail olmaqda mühüm hesab etdikləri haqqında öz mövqelərini bölüşməyi onlara təklif edin.

**Qeyd: Bu çalışmanın düzgün və yaxud səhv cavabları yoxdur, çünki hər şey şagirdlərin rəyindən asılıdır, ola bilər ki, bəzi bacarıqlar hətta Məqsədlərin hamısına uyğun gəlsin.**

**Çətin sual:** Şagirdlərə sual verin: "Qlobal məqsədlərə nail olmaqda kömək edə biləcək bacarıq, maraq və biliklərə malik insanların çox olması nə üçün vacibdir?" Ona görə ki, dünyanın rastlaşdığı problemlər nəhəng olaraq birmənalı deyil və əksər hallarda yeganə bir həlli və yaxud cavabı mövcud deyil.

## 4-cü addım: Şəxsi potensialın gerçəkləşdirilməsi

10
dəq.

Növbəti addım şagirdlərin hansı bacarıqlara malik olmalarını müəyyənləşdirməkdən ibarətdir. Şagirdlərə aşağıdakı sualların cavabları haqda düşünməyi təklif edin. Sualın cavabına daha yaxşı hazırlaşmaq üçün onlar bir-biri ilə fikir mübadiləsi apara bilərlər.

1. *Hansı xüsusiyyətlərin səni unikal edir?*
2. *Sən "Məqsəd qapıçısı" ola biləcəyini təsdiqləyən hansı keyfiyyətlərə maliksən?*
3. *"Məqsəd qapıçısı" olmaq üçün sənin hansı bacarıq və keyfiyyətlərini daha da inkişaf etdirmək olardı?*
4. *Böyüyəndə nə cür insan olmaq istəyirsən?*

Şagirdləri düşünməyə və mümkün qədər çox söz axtarıb tapmağa yönəldin. Onlara çatdırmaq lazımdır ki, zahiri görünüşü deyil, şəxsi xüsusiyyətləri, bacarıq və bilikləri əks etdirən sözləri seçməlidirlər. Kömək üçün **Əlavə 3-də** göstərilən sözlərdən istifadə edə bilərsiniz.

## 5-ci addım: “Məqsəd qapıçısının” portretinin yaradılması

**10** dəq.

Bundan sonra “Mən məqsəd qapıçısıyam” əlavəsini göstərin. Şagirdlərə Qlobal məqsədlərə çatmağa yönəlmiş fəaliyyət nöqteyi-nəzərindən onların fikrincə faydalı ola biləcək 3 sözün seçilməsi lazım olduğunu izah edin. Bu imkandan istifadə edərək şagirdlərə izah edin ki, söhbət bütün insanların müxtəlifliyindən gedir və həyat maraqlarının müxtəlifliyi – məhz Qlobal məqsədlərə nail olmaq üçün zəruridir. Nümunə olaraq bir sıra “Məqsəd qapıçısı”nın portretini göstərə bilərsiniz.
http://perfectdaylondon.com/projects/goalkeepers/
Şagirdlər öz şəkillərini “Məqsəd qapıçısı” əlavəsinin veb-saytına yükləyirlər, bu zaman öz portretlərinə mətn və rəngli dizayn əlavə edərək onu fərdiləşdirə bilərlər (Təlimat ilə Əlavə 4-də tanış olmaq olar).

Digər insanların Qlobal məqsədlər haqqında məlumat almasına kömək etmək üçün “Məqsəd qapıçısı” portretindən necə istifadə edə biləcəkləri haqda düşünməyi şagirdlərə təklif edin. Şagirdlərə 2017-ci ildə Nyu-Yorkda “Məqsəd qapıçıları”nın şərəfinə keçirilmiş 1-ci tədbirin populyarlaşdırılması üçün bundan əvvəlki “Məqsəd qapıçılarının” portretlərindən necə istifadə olunduğu haqda nümunələri göstərin. Şagirdlər öz “Məqsəd qapıçısı” kampaniyasını təşkil edə bilərmi?

**Alternativ variant:** Kameralı telefon/fotokamera olmadığı halda şagirdlərə güzgülər paylayın və onlara karandaşlar, boyalar vasitəsi ilə öz avtoportretlərini çəkməyi yaxud kollaj tərtib etməyi təklif edin. Sonra şagirdlər Məqsəd qapıçısının portretinin yaradılması üçün bu kollajdan və seçdikləri üç sözdən istifadə edə bilərlər. (“Məqsəd qapıçısı”nın nümunəvi portreti ilə Əlavə 5-də tanış olmaq olar). Bundan sonra “Məqsəd qapıçısı”nın portreti sinif otağında və yaxud məktəbdə ictimaiyyətə təqdim edilə bilər. Şagirdlərə bunların daha harada göstərməyin mümkün olduğu haqda düşünməyi təklif edin. Digər insanların Qlobal məqsədlər haqqında məlumat almasına kömək etmək üçün şagirdlər öz “Məqsəd qapıçısı” portretlərini daha harada ictimai baxışa təqdim edə bilərlər?

## 6-cı addım: İndi siz hazırsınız – fəaliyyətə başlayın!

**10** dəq.

Şagirdlər “Məqsəd qapıçısı” olmaq üçün zəruri bacarıq və biliklərin siyahısını müəyyən etdikdən sonra Qlobal məqsədlərə nail olmaq naminə fəaliyyətə hazırdırlar! Şagirdlərə sinifdə aşağıdakı məsələlərin müzakirəsini təklif edin:

- Məqsədlərə nail olmaq naminə hansı fəaliyyətə elə indi hazırsınız?
- Məqsədlərə nail olmaq naminə bütün siniflə birgə nə etmək istərdiniz?
- Məqsədlərlə bağlı hansısa suallarınız yarandımı?

Şagirdləri elə indi fəaliyyətə başlamağa həvəsləndirmək üçün “Dünyanın ən böyük dərsi” multiplikasiya filminə (3-cü hissəsinə) baxın. https://vimeo.com/266852848

Öz “Məqsəd qapıçısı” portretlərinizi bizimlə bölüşün! Bizim interaktiv kartımızda aldığınız bilikləri yerləşdirərək minlərlə digər “Məqsəd qapıçılarına” qoşulun. Bizimlə Twitter —@TheWorldsLesson, Facebook — @TheWorldsLargestLesson, Instagram — @TheWorldsLesson şəbəkələrində və yaxud lesson@project-everyone.org elektron poçt vasitəsilə əlaqə saxlaya bilərsiniz.

### Əlavə çalışmalar:

- Qlobal məqsədlərə nail olmaq naminə şagirdlərin həvəsləndirilməsi və konkret fəaliyyətə başlamaları üçün onlara “Dünyanın ən böyük dərsi” — http://worldslargestlesson.globalgoals.org/ru/ veb-saytında “Şagirdlərin fəaliyyəti” adlı bölməni göstərin. .
- Yerli icmanın həyatını dəyişdirmək üçün “Birgə hərəkət edirik” löhvəsini yaradın. http://worldslargestlesson.globalgoals.org/student-led-change-projects/
- Bu qısa filmi nəzərdən keçirin Vimeo https://vimeo.com/268764152, Youtube https://www.youtube.com/watch?v=lf4jpEhRubs&feature=youtu.be) (qeyd: film ingilis dilindədir). Bu film keçmişin məşhur insanları haqqındadır. Şagirdlərə aşağıdakı sualları verin: Əgər bu video-filmdəki insanlar indiki zamanda yaşasaydılar, “Məqsəd qapıçısı” olardılarmı? Bu insanların hansı cəhətləri onların “Məqsəd qapıçısı” olduğunu təsdiqləyir? Belə vacib işlər görə bilmək üçün hansı şəxsi keyfiyyətlərə sahib olmalı idilər? Bu ya ev tapşırığı, ya da Tarix fənnində məşhur şəxsiyyətə həsr edilmiş öyrədici layihənin əsası ola bilər.
- Şagirdlərə onların fikrincə öz ölkələrində “Məqsəd qapıçısı” adı verilə biləcək adamın həyatı haqqında öyrənməyi təklif edin. Bu insanları nəyə görə “Məqsəd qapıçısı” adlandırmağın mümkün olması ilə bağlı nümunələr əsasında yazılı məruzə hazırlamağı şagirdlərə təklif edin. Bu insanlardan onlar nə öyrənə bilərlər? Onları şagirdlər qarşısında çıxış etmək məqsədilə məktəbinizə dəvət etmək olarmı? Onlar şagirdləri fəaliyyətə çağıraraq gəncləri həvəsləndirə biləcəklərmi?
- Hər bir insan “Məqsəd qapıçısı”nın portretini yarada bilər. Qlobal məqsədlərlə bağlı əsas bilikləri yaymaq məqsədi ilə şagirdləri öz valideynləri, ailələri və dostları ilə bu ideyaları paylaşmaqa çağırın
- Şagirdlərə hər il “Məqsəd qapıçıları”nın şərəfinə keçirilən təntənəli tədbirlər haqda məlumatla tanış olmağı təklif edin (https://www.globalgoals.org/goalkeepers). Əvvəllər bu kimi tədbirlərdə qonaq və iştirakçılar qismində kimlər olmuşdur? Məqsədlərə nail olmaq üçün onlar hansı addımlar atmışlar? Nə üçün belə təntənəli tədbirlər Qlobal məqsədlərə nail olmaq üçün çox vacibdir?

# Əlavə 1: Bütün dünya üzrə gənc "Məqsəd qapıçıları" haqqında nümunələr



## Malavili
## Memori Banda

Memori erkən nigaha girmək ənənəsinin qarşısını almaq üçün yorulmaz mübarizə aparan insandır. Memori erkən yaşda ərə getməkdən imtina etmişdir və bunun əvəzində kənd ağsaqqalları ilə birlikdə kiçik yaşlı qızları nigaha girməkdən qoruyan hüquq aktlarını işləmişdir. Onun fəaliyyəti uğurla nəticələnmiş və Malavinin hakimiyyət orqanları qanunla təsdiq olunmuş nigaha girməyə icazə verən minimal yaşı 18 yaş kimi müəyyən etmişdir.
.

**1. Qlobal məqsədlərə nail olmaq naminə fəaliyyətə başlamağa sizi nə vadar etdi?**
Şübhəsiz bilirsiniz ki, dünyanın ən kasıb ölkələrinin birində uşaqların, xüsusən qızların böyüməsi heç də asan iş deyil. Biz hamımız elə bir şəraitdə böyümüşük ki, demək olar ki, heç bir seçim hüququmuz olmamışdır və yaxud bu hüquq əlimizdən alınmışdır. Ona gorə də həyatda bizim üçün daha az imkanlar açılırdı. Çox kədərli haldır ki, insanlar öz anadangəlmə, onlara məxsus olan hüquqları haqda heç nə bilməyərək böyüyürlər. Ən çətini mənim yaşımda olan qızların hüquqları pozulan zaman və yaxud həyat yollarında müxtəlif çətinliklər yarananda öz hüquqları ilə bağlı mövqelərini ifadə edə bilmədiklərini görməkdir. Təhsil almaq – ən əsas insan hüquqlarından biridir, lakin qızların əksəriyyəti ondan məhrumdurlar. Mən öz ailəmdə, yoldaşlarım arasında, cəmiyyətdə qızların kiçik yaşda nigaha girməyini görəndə onların hüquqlarının qorunması üzrə mübarizəyə başlamağı qərara aldım. Erkən yaşda nigaha girmək – ən məhvedici ənənələrdən biridir və gələcəkdə fəal vətəndaş ola biləcək qızların böyük bir hissəsini əhatə edir. Mən qənaətə gəldim ki, qızlara eyni cür imkan verən, o cümlədən məktəbə getmək, ictimai, siyasi və iqtisadi sahələrdə iştirak etmək hüququnun əldə edilməsinin vaxtı gəlib çatmışdır.

**2. Fəaliyyətinizi davam etdirməyə size nə həvəsləndirir?**
Mənim irəliyə doğru getməyimin stimulu bizim əldə etməyə çalışdığımız tərəqqidir. Qızlar öz problemlərindən azad olurlar və mövcud vəziyyəti dəyişməyə çalışırlar. Onlar öz hüquqlarını müdafiə etməyə başlayırlar və öz icmalarında həyatı yaxşılığa doğru dəyişdirməkdə lider olurlar, öz hüquqları uğrunda mübarizə aparırlar. Bu da onu göstərir ki, gender bərabərliyi (5-ci məqsəd) əldə oluna biləcək Məqsəddir.

**3. Nə üçün siz düşünürsünüz ki, Qlobal məqsədlərə nail olmaq üçün gənclərin fəaliyyəti mühüm amildir?**
Gənclər müxtəlif məhdudiyyətlərin təsirinə daha çox məruz qalırlar, ona görə də dünya üzrə onların həyatına təsir göstərə biləcək bütün fəaliyyət növlərinə qoşulmaları çox vacibdir. Gənclərin iştirakı olmadan Məqsədlərə çatmaq mümkün olmayacaq. Bütövlükdə və geniş miqyasda Qlobal məqsədlər heç kəsin kənarda qalmamasına yönəlmişdir. Gənclər gələcək nəsillər üçün möhkəm bünövrə qurulması naminə bütün bizim etdiklərimizin bir hissəsi olmalıdır.

**4. Sizin üçün "Məqsəd qapıçısı" olmaq nə deməkdir?**
"Məqsəd qapıçısı" olmaq – sosial əhəmiyyətli problemləri aşkar etməyi bacarmaq, onların həlli üçün nə etməyi bilmək, bunun uğrunda mübarizənin başında dayanmaq və fərqli tərzdə düşünərək dəyişikliklərin baş verməsinə inanmaqdır. "Məqsəd qapıçısı" olmaq üçün heç bir xüsusi qabiliyyət gərək deyil, çunki hər kəs "Məqsəd qapıçısı" ola bilər. Sadəcə insanlar Qlobal məqsədlərin hər hansı birini seçərək tərəqqiyə doğru istiqamətdə bütün güclərini əsirgəməməlidirlər. Dəyişikliklər istək, iradə və fəaliyyət olan yerdə baş verir.

## Əlavə 1: Bütün dünya üzrə gənc “Məqsəd qapıçıları” haqqında nümunələr



### Böyük Britaniyalı Ndbuisi Uçea və Hayel Vartemberq

Ndu və Hayel gənclərin həyat tarixçələrini və mədəniyyətlərini, xalqların mədəni fərqliliyini dərk etməyə dəstək üçün nəzərdə tutulmuş “Word on the Curb” təşkilatının həmtəsisçiləridirlər. Ndu və Hayel bütün dünya üzrə müxtəlif insanlara xas olan xurafat və stereotipləri tədqiq etmək istəyirlər, “Word On The Curb”ı bu işin aləti kimi inkişaf etdirərək iştirakçıların öz həyatları haqqında bölüşə biləcək və digər insanların rəyləri ilə tanış olmağa imkan verən forum yaradırlar. Bu da öz növbəsində ticarət nişanlarının sahiblərinə və işgüzar dairələrə gənclər haqqında vacib analitik informasiya verir. Eyni zamanda gənclərə yaradıcı sferada öyrənmək və şəbəkələşmək imkanı yaradır.

**1. Qlobal məqsədlərə nail olmaq naminə fəaliyyətə başlamağa sizi nə vadar etdi?**

Biz ikimiz də mədəni və etnik cəhətdən müxtəlif olan London şəhərində rahat bir mühitdə böyümüşük. Biz Mançester Universitetinə daxil olarkən dərk etdik ki, bizim yüksək səviyyədə tərbiyə almağımıza baxmayaraq dünyanı dərk etmək üçün kifayət qədər geniş dünyagörüşümüz yoxdur və ən vacibi isə – dünyanı təşkil edən müxtəlif mədəniyyətlər və eynilik haqqında biliyimiz azdır. Biz gördük ki, qarşımızda universitet şəhərciyinin bütün müxtəlif sakinlərinin həyat yollarını müzakirə etmək üçün forum açmaq imkanı yaranır. Təhsilimizi bitirdikdən sonra isə biz universitetdən və Mançesterdən kənarda da forumun miqyasını genişləndirmək istədik. Diskriminasiyanın açıq və gizli tərəfləri ilə şəxsən üzləşmişik; müxtəlif mədəniyyətlərin xüsusiyyətlərini bilməməyin mənfi nəticələri haqda məlumatımız var. Lakin məhz indi belə vəziyyətin dəyişdirilməsinə kömək etmək arzusundayıq.

**2. Fəaliyyətinizi davam etdirməyə sizi nə həvəsləndirir?**

Dünyanın dörd bir tərəfində baxılan və paylaşılan video-çarxlar yaradaraq biz qlobal miqyasında insanlara təsir göstərə bildik. Buna misal olaraq bizim yaratdığımız “Mənə məktəbdə nəyi öyrətməmişlər?” adlı çarxı göstərə bilərik. Bu video-çarxda söhbət məktəbdə qara əhalinin tarixini tədris edən müəllimlə şagirdin mübahisəsindən gedir. Buna müxtəlif sosial şəbəkələrdə 40 milyondan çox insan baxmışdır və indi də hər yerdən – Lesotodan Luizianaya kimi - elektron məktublar almağa davam edirik. Məktublarda ayrı-ayrı insanlara, məktəb şagirdlərinə, ailə və icma üzvlərinə bu video-çarxın müsbət təsir göstərdiyi haqda deyilir. İkimizin də Nigeriya və Qanada qohumlarımız var ki, bizim bu çarxların müəllifləri olduğumuzu bilmədən, Whatsapp vasitəsi ilə onları bizə göndərirlər. Məhz buna oxşar rəy və situasiyalar bizi bu işi davam etməyə təşviq edir.

**3. Nə üçün siz düşünürsiz ki, Qlobal məqsədlərə nail olmaq üçün gənclərin fəaliyyəti mühüm amildir?**

Hal-hazırda dünyada əvvəlki vaxtlardan fərqli olaraq daha çox gənc yaşayır (10 yaşından 24 yaşadək 2 milyarda yaxın insan). Bu o deməkdir ki, onların arasında qarşılıqlı əlaqəni işin sadəcə olaraq vacib elementi kimi yox, Məqsədlərə nail olmaq istiqamətində hərəkatın mütləq şərti kimi qəbul etmək lazımdır. Adətən inkişaf istiqamətlərini gənclər müəyyən edir. Biz Whatsapp və FB-dən istifadəyə valideynlərimizdən əvvəl başlamışıq və bu şəbəkələrdən istifadə etməyi onlara da öyrədirik. Bu səbəbdən Məqsədlərə nail olmaq üzrə fəaliyyətə gənclərin cəlb edilməsinin uzunmüddətli əhəmiyyəti var.

**4. Sizin üçün “Məqsəd qapıçısı” olmaq nə deməkdir?**

“Məqsəd qapıçısı” olmaq – hər gün üzərimizə götürdüyümüz məsuliyyəti dərk etmək, icmaya kömək etmək, hər kəs üçün daha cəlbedici mühit yaratmaq, bir-birimizlə birgə yaşamaq üçün əlverişli şərait yaratmaqdır. Məsləkdaş “qapıçılar” icması bizə birgə işləməyə və Qlobal məqsədlərin tələbləri qarşısında aciz qalmamağa imkan verir. Onlara nail omaq mümkündür və nail olunacaqdır!

## Əlavə 2: Qlobal məqsədlər arasında əlaqələrin müəyyən edilməsi



## Əlavə 3: “Məqsəd qapıçısı” əlavəsinə aid sözlərin siyahısı

Yaşıl rənglə qeyd olunan sözlər Qlobal məqsədlərlə tanışlıq zamanı nümayiş olunan bacarıqları bildirir. Göy rənglə qeyd olunanlar – “Məqsəd qapıçısı” əlavəsində göstərilən uşaqlar tərəfindən istifadə oluna biləcək sözlərdir.

1. Cəsur
2. Qayğıkeş
3. Yaradıcı
4. Maraqlanan
5. Qətiyyətli
6. Həvəsli
7. Xoşbəxt
8. Diqqətli
9. Zəngin təxəyyülə malik
10. Xeyirxah
11. Sadiq
12. Həyat qabiliyyətli
13. Güclü
14. Düşüncəli
15. Etibarlı
16. Fəal
17. Macəra axtaran
18. Aktyor
19. İdmançı
20. Qardaş
21. Kampaniya iştirakçısı
22. Dəyişikliklər tərəfdarı
23. Tərtibatçı
24. Xəyalpərəst
25. Təşəbbüskar
26. Ətraf aləmin mühafizəçisi
27. Dost
28. Yenilikçi (novator)
29. Lider
30. Riyaziyyatçı
31. Musiqiçi
32. Nikbin
33. Alim
34. Bacı
35. Nağılbaz
36. Şagird
37. Gələcəyi görən

## Əlavə 4: “Məqsədlərin qapıçısı” əlavəsindən istifadə qaydaları üzrə təlimat

1. Öz fotoşəklinizi çəkin və yaxud bunu etməyi dostlarınızdan xahiş edin. Sifət cizgilərinizin yaxşı göründüyünə və üzünüzdə təbəssüm olduğuna diqqət edin. Şəklinizin iri planda çəkilməsi zəruridir, onun bütün bədəni əhatə etməsinə ehtiyac yoxdur. Bu şəkli kompüterin iş masasında saxlayın.

2. “Məqsədlərin qapıçısı” http://wllgoalkeeperme.globalgoals.org/ əlavəsinə daxil olun.



3. Şəkillərinizi yükləmək üçün “kamera” piktoqram işarəsini vurun.




4. Portretlərinizi fərdiləşdirmək üçün şəkil yeri olan hər bir sahənin sağ tərəfinin yuxarısında yerləşən piktoqramlardan istifadə edin. A piktoqramı söz seçiminizi edən yeri göstərir. “Fırça” aləti vasitəsi ilə siz mətnin rəngini dəyişdirə bilərsiniz, yarımçıq rənglənmiş dairə isə - şəkillərinizin rəng dolğunluq səviyyəsini seçməyə kömək edən alətdir.

5. “Məqsəd qapıçısı” portretinizi yaddaşda saxlamazdan əvvəl mütləq “Məqsəd qapıçısı” əlavəsinin əsasnaməsi və şərtləri ilə tanış olun.
6. Portreti yaddaşda saxlamağın iki variantı var. Əgər mavi düyməni bassanız, o, sizin kompüterinizə avtomatik yüklənəcək. Və yaxud “Qalereyada saxlamaq” düyməsini basaraq “Məqsəd qapıçısı” portretinizi həm kompüterinizdə, həm də açıq qalereyada saxlaya bilərsiniz.

7. Sonra öz “Məqsəd qapıçısı” portretinizi Twitter və yaxud Instagram sosial şəbəkələrində @TheWorldsLesson ünvanında və yaxud Facebook şəbəkəsində @TheWorldsLargestLesson ünvanında və yaxud #WorldsLargestLesson həştəq vasitəsi ilə, ya da lesson@project-everyone.org elektron ünvanına göndərin.

## Əlavə 4: “Məqsəd qapıçısının” nümunəvi portreti

# Mənim “Məqsəd qapıçısı” portretim

WORLD'S LARGEST LESSON | unicef

**Təlimatlar**

- Karandaş və boyalar vasitəsi ilə öz portretinizi yaratmaq üçün güzgü və ya fotoşəkildən istifadə edin.
- Sizin nə üçün “Məqsəd qapıçısı” olduğunuzu ən dəqiq ifadə edən üç söz seçin.
- Öz “Məqsəd qapıçısı” portretinizi digər insanlarla bölüşün!






DÜNYANIN ƏN BÖYÜK DƏRSİ | unicef | tcc